**17 İyun Tibb İşçilərinin Peşə Bayramı Günüdür**

# Ölkə səhiyyəsi uğurlu inkişaf yolundadır



***Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Ən çətin anlarda, özümüzü narahat hiss etdiyimiz ən ağır günlərdə onlara üz tuturuq. Gecənin hər hansı vaxtı, gündüzün istənilən zamanı müraciət etməyimizdən asılı olmayaraq, həmişə bizi diqqətlə dinləyir, şəfalı əlləri ilə ağrılarımızı yüngülləşdirir, dərdlərimizə məlhəm olurlar. Ömürlərə ömür calamaq, ümid yeri olmaq, xəstələrə şəfa vermək xeyirxah olduğu qədər də gərəkli və müqəddəs işdir. Elə bu nəcib peşələrinə görə tibb işçiləri hər cür hörmət və ehtirama layiqdirlər. Bu gün onların -- ağxalatlı peşə sahibi olan tibb işçilərinin peşə bayramıdır. Hər il iyunun 17-si xalqımızın ümummilli lideri Heydər Əliyevin 2001-ci il iyunun 4-də, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk Səhiyyə və Sosial Təminat Nazirliyinin yarandığı günə istinad edərək imzaladığı sərəncama əsasən, ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.

Əsrdən artıq müddətdə Azərbaycan səhiyyəsi çox böyük inkişaf yolu keçib və son illər Azərbaycan səhiyyəsinin idarə olunması, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, yeni tibbi texnologiyaların tətbiqi, köklü kadr islahatları və aparılan digər tədbirlər onu dünyanın qabaqcıl ölkələrinin səviyyəsinə çıxarmağa imkan yaradıb. Tibb müəssisələrinin təmir və bərpası, vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təmin olunması, onların müalicəsi, regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, xüsusilə uşaqların bütün tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsində aparılan islahatların əsas istiqamətlərini təşkil edir. Heydər Əliyev Fondunun diabetli, talassemiyalı xəstələrə göstərdiyi qayğı və onların müalicəsinin təşkilində, qanvermə aksiyalarının keçirilməsində, ana və uşaqların sağlamlığının qorunmasının yaxşılaşdırılmasında gördüyü işlər də böyük razılıq və rəğbət doğurur.

2017-ci ildən etibarən ölkəmizdə səhiyyə sisteminin maliyyələşdirilməsini dayanıqlı iqtisadi əsaslarla qurmaq, əhalini sağlamlıqla bağlı maliyyə risklərindən qorumaq məqsədi ilə mərhələli şəkildə genişmiqyaslı sosial layihə olan icbari tibbi sığortanın pilot layihə şəklində tətbiqinə başlanılıb. Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarında 370 min nəfərə yaxın sığortaolunan baza zərfi əsasında ödənişsiz tibbi xidmətlərlə təmin edilib. Bir çox ölkələrin səhiyyə sistemində geniş şəkildə tətbiq edilən icbari tibbi sığortanın ölkəmizdə həyata keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin verdiyi qərar dövlət siyasətinin mərkəzində insan amilinin durduğunu bir daha sübut edir.

“Tibbi sığorta haqqında” Qanuna görə, icbari tibbi sığortanın xidmətlər zərfi öncə baza və əlavə hissədən ibarət düşünülmüşdü. Sonradan Milli Məclisin plenar iclasında həmin qanuna edilən dəyişikliyə görə icbari tibbi sığortanın xidmətlər zərfinin vahid toplu şəklində, ambulator–poliklinika və stasionar şəraitdə göstərilən bütün tibbi xidmətləri əhatə etməsi qərara alındı. Pilot ərazilərdə xidmətlərin keyfiyyətini yüksəltmək məqsədilə Mingəçevir şəhəri üzrə 2, Yevlaxda 5, Ağdaşda isə 15 ilkin səhiyyə müəssisəsi təşkil olundu. Təcili təxirəsalınmaz tibbi yardım (TTTY) xidmətlərinin səmərəliliyini artırmaq məqsədilə pilot ərazilərdəki Mərkəzi xəstəxanalarda TTTY şöbələri quruldu. Tibb müəssisələrinin idarəedilməsi strukturu dəyişdirildi, tibbi təchizat yaxşılaşdırıldı və 24 saat fəaliyyət göstərən diaqnostik laboratoriyalarda müasir tibbi avadanlıqlar quraşdırıldı. İTS-nın tətbiqi nəticəsində pilot ərazilərdə anadangəlmə ürək qüsuru ilə doğulan 37 uşaq əməliyyat edilərək sağlamlıqlarına qovuşdu. Ağdaşdan olan 170 xəstə Bakıda özəl xəstəxanalarda heç bir ödəniş etmədən koronar angioqrafiya (anju), ürəyə stend qoyulması əməliyyatı keçirdi. 2020- ci ildən başlayaraq ölkə üzrə icbari tibbi sığortaya tam keçid nəzərdə tutulurdu. Ancaq COVID--19 pandemiyası nəticəsində bu proqramın icrası müəyyən dərəcədə təxirə salındı.

Pandemiya şəraitində səhiyyədə çalışanların işi bir neçə dəfə ağırlaşıb. Dövlətimiz həm təchizat, həm də xəstələrə qayğı baxımından üzərinə düşən bütün çətinlikləri bacarıqla dəf edir. Bu məqsədlə yeni laboratoriyalar alınıb. Onların sayı hazırda 20-dən çoxdur. Koronavirus xəstələrini müalicə etmək üçün qabaqcıl xəstəxanalar ayrılıb. “Yeni klinika” məhz belə müəssisələrdəndir. Bu tibb ocağında quraşdırılan avadanlıq istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə və dəqiqliklə yerinə yetirməyə hərtərəfli imkan verir. 575 çarpayılıq xəstəxanada cərrahiyyə, terapiya, təcili tibbi yardım, poliklinika, ürək və damar cərrahiyyəsi, neyrocərrahiyyə, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Xəstəxanada 1500-dən artıq həkim və tibbi heyət çalışacaq. Bu tibb müəssisəsi Azərbaycanda təchizat, avadanlıq və burada göstəriləcək xidmət baxımından aparıcı xəstəxanadır. Pandemiya başa çatana qədər bu müəssisədə yalnız koronavirus xəstələri müalicə alacaqlar. Ona görə bu xəstəxananın işə düşməsi əlbəttə ki, koronavirusa qarşı mübarizədə əlavə imkanlar yaradacaqdır. Ancaq birinci mərhələdə 100, ondan sonra 300 çarpayı xəstələrin sərəncamına veriləcəkdir. Burada 70 reanimasiya yeri vardır. Bu da koronavirus xəstələrinə göstəriləcək xidmətin önəmli hissəsini təşkil edir.

Bütövlükdə son illərdə ölkəmizin səhiyyə sisteminin təkmilləşdirilməsi sahəsində böyük işlər görülmüşdür. 2004-cü ildən bu günə qədər 750-dən çox tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. Onların bir çoxunun açılışında dövlət başçısı şəxsən iştirak edib. Bu gün Azərbaycanda elə şəhər yoxdur ki, orada müasir tibb mərkəzi, xəstəxana olmasın. Üç-dörd şəhərdə mərkəzi rayon xəstəxanasının tikintisi davam edir və yaxın vaxtlarda orada açılışlar gözlənilir. Bu il Qazax, Goranboy və Şəmkir şəhərlərində dövlət başçısının iştirakı ilə mərkəzi rayon xəstəxanaları açılıb. Bölgələrimizdə 20-yə yaxın müalicə-diaqnostika mərkəzi inşa edilib. Ötən ilin statistikasına görə, hazırda ölkəmizdə 32 mindən çox həkim, 55 minə yaxın tibb işçisi əhalinin sağlamlığı keşiyində dayanır. Aparılan islahatlar, maddi-texniki bazanın təkmilləşdirilməsi, təchizat və kadr hazırlığı ilə bağlı görülən işlər əhalinin dövlət tibb müəssisələrinə olan inamını getdikcə artırır.

Bu gün əsas diqqət Bakı şəhərində və bölgələrdə koronavirus xəstələrinin düzgün müalicəsinin aparılmasına yönəlib. Ona görə həkimlərin təlimi, onların peşəkarlığının artırılması sahəsində də böyük işlər görülüb. Azərbaycan tələbələri xarici ali tibb məktəblərinə ezam edilib, həmçinin kurslarda təlim keçiblər. Odur ki, bu gün səhiyyə infrastrukturumuz həkimlərin peşəkarlığı və bilikləri ilə uzlaşır. Cənab Prezident bu istiqamətdə görülən işlərin çox olduğunu vurğulamışdır: “Dünya tibb elmi sürətlə inkişaf edir. Bu gün elə xəstəliklər müalicə olunur ki, əvvəlki illərdə bu xəstəliyin çarəsi yox idi. Ona görə Azərbaycan həkimləri, xüsusilə həkimlərin gənc nəsli, orta nəsli daim öz üzərində işləməlidir ki, bütün dünyada mövcud olan və yaranan yeni texnologiyalar, yeni müalicə qaydaları, yeni müalicə üsulları bizdə tətbiq olunsun. Mən hesab edirəm ki, bu sahədə əlavə işlərin görülməsi lazımdır”.

Koronavirusla mübarizədə ölkəmizdə qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində vəziyyət nəzarət altında saxlanır. Minlərlə insanın ölməsi və xəstəliyin demək olar ki, dünyada geniş yayılması bütün ölkələr üçün böyük sınaqdır, böyük çağırışdır. Cənab Prezidentin göstərişi ilə Nazirlər Kabineti yanında 24 saat işləyən operativ qərargah yaradılmasını da məhz pandemiya zəruri edib. Ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasda olan ilk ölkələrdəndir ki, onların mütəxəssisləri ölkəmizə dəvət edilib. Onlar vəziyyətlə tanış olublar və görülən işlərə yüksək qiymət veriblər. Ümumdünya Səhiyyə Təşkilatının baş direktorunun mart ayının sonunda Prezident İlham Əliyevə ünvanladığı məktubda koronavirusla mübarizə işində Azərbaycanın nümunəvi ölkə olduğu bildirilmişdir. Azərbaycan 14 ölkəyə zəruri maliyyə və texniki, o cümlədən tibbi preparatlar və qoruyucu vasitələr yardımı göstərib. Mart ayında ÜST ilə Azərbaycan arasında imzalanan donor sazişinə müvafiq olaraq təşkilata 5 milyon dollar ayrılıb. May ayında isə Qoşulmama Hərəkatının sədri kimi hərəkatın virusdan daha çox zərər çəkən üzvlərinə yardım göstərilməsi üçün ÜST-ə əlavə olaraq 5 milyon dollar ianə edib.

Martın 14-də və ondan sonrakı tarixlərdə qəbul edilmiş məhdudlaşdırıcı tədbirlər vəziyyətə uyğun atılmış addımlar idi. Çünki biz birinci ölkələrdən idik ki, ali məktəblər, orta məktəblər, uşaq bağçaları, quru sərhədlər bağlandı. Vətəndaşlarımız digər ölkələrdən Azərbaycana təxliyə edildilər və karantinə yerləşdirildilər. Ən böyük anoloji xidmət müəssisəsi olan “Bulvar Hotel”, “Qafqaz”, “Pullman” otelləri, bölgələrdə yerləşən dörd, beş ulduzlu bütün əsas otellər, istirahət zonaları karantində saxlanılan insanların sərəncamına verildi. Bəzi dövlət qurumlarının istirahət zonaları da bu işə cəlb ediliblər.

Əlbəttə ki, bu mübarizədə əsas yük həkimlərin üzərinə düşür. Çıxışlarında dəfələrlə Azərbaycan həkimlərinə təşəkkür edən dövlət başçısının sərəncamı ilə onların maddi təminatının yaxşılaşdırılması üçün əlavə tədbirlər görülüb. Koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı əmək haqlarının 3, 4, 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən diqqətin təzahürüdür. Səhiyyədə çalışanların əsas motivasiyası odur ki, onlar öz vəzifə borcunu yerinə yetirmək, Hippokrat andına sadiqliklərini göstərmək istəyirlər. Azərbaycan Prezidenti İlham Əliyev həkimlərin əməyini yüksək dəyərləndirir:

“Onlar xalqımıza xas olan ən yüksək xüsusiyyətləri nümayiş etdirirlər və öz həyatlarını risk altına ataraq xəstələrə xidmət göstərirlər. Ona görə hər bir Azərbaycan vətəndaşı həkimlərə dəstək olmalıdır. O cümlədən koronavirus yoluxmuş xəstələr başa düşməlidirlər ki, həkimlər belə ağır şəraitdə, sadəcə olaraq, yeriməyə çətinlik yaradan geyimlərdə, maskalarda onlara xidmət göstərirlər. Ona görə həkimlər ən yüksək qiymətə layiqdirlər. Həkimlərə həmrəylik və dəstək üçün müxtəlif aksiyalar keçirilir və keçiriləcək”. Ölkəmizin müasir memarlıq rəmzlərindən biri olan “Alov qüllələri”ndə də həkimlərə dövlətin münasibəti – “Azərbaycan həkimlərinə eşq olsun!” şüarı öz əksini tapır.

Virusun yayılmağa başladığı dövrdən dövlət başçısının tapşırığına əsasən zəruri qabaqlayıcı, profilaktik və təxirəsalınmaz tədbirlər istiqamətində görülən kompleks işlər çərçivəsində Prezident İlham Əliyevin təşəbbüsü ilə modul tipli 10 yeni xəstəxananın tikintisinin xüsusi əhəmiyyəti var. Bu, tətbiq olunan xüsusi karantin rejimi dövründə ölkənin səhiyyə sisteminin indiyədək görünməmiş bu qlobal çağırışa və arta biləcək xəstə sayına tab gətirməsi üçün mövcud xəstəxanaların infeksion çarpayı fondunun artırılması baxımından müstəsna rol oynayır. Mayın 7-də paytaxtda açılışı edilən modul tipli ilk xəstəxana kompleksinin tikinti və quraşdırma işləri 3 həftə ərzində tamamlandı. Üç korpusdan ibarət, ümumilikdə, 100 palatada 200 çarpayı yeri olan modul tipli xəstəxana kompleksində orta-ağır simptomlu infeksion xəstələrin qəbulu və müalicəsi üçün hərtərəfli şərait yaradılıb. İyunun 9-da Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə paytaxtın Bilgəh qəsəbəsində modul tipli ikinci xəstəxana açıldı. Eyni zamanda, Sumqayıt şəhər 1 saylı xəstəxananın və Abşeron rayonunun Saray qəsəbəsindəki xəstəxananın nəzdində fəaliyyət göstərəcək modul tipli xəstəxanaların da videoformatda açılışı oldu. Koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün hər cür şəraitin yaradıldığı, ümumilikdə, 100 palata və 200 çarpayı yeri olan üç korpuslu bu xəstəxana kompleksləri mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunub. Ümumilikdə, 10 modul tipli xəstəxana kompleksinin quraşdırılıb istifadəyə verilməsi nəticəsində ölkəmizin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranacaq.

Qeyd etməliyik ki, 10 xəstəxananın 4-ü özəl sektorun öz vəsaiti hesabına inşa ediləcək. Bu, dövlətin üzərindən yükü bir qədər azaldır. Özəl sektorun nümayəndələrinə və eyni zamanda, adi vətəndaşlara koronavirus dövründə göstərdikləri maliyyə dəstəyinə görə təşəkkür edən Prezident bildirmişdir ki, Koronavirusla Mübarizəyə Dəstək Fonduna yığılmış məbləğ sahibkarlar və adi vətəndaşlar hesabına 100 milyon manatı ötüb. Bu, bir daha onu göstərir ki, xalqımız çətin dövrdə birləşə, həmrəylik və birlik göstərə bilir. “Zeytun Pharmaceuticals” MMC şirkəti ölkəmizdə yeni növ koronavirus infeksiyasının laborator müayinəsini həyata keçirmək üçün 50 000 nümunəlik PZR müayinə dəstini təmənnasız olaraq təqdim edib. Dövlət tədbirlərinə daim dəstək verən bu şirkət Prezidentin təşəbbüsünə qoşularaq Koronavirusla Mübarizəyə Dəstək Fonduna vəsait də köçürüb. Bu bir daha onu göstərir ki, Prezidentimizin müəyyən etdiyi sosial məhsuliyyət strategiyasına əməl edən şirkətlər seçilmiş kursa sadiqlik nümayiş etdirirlər.

Pandemiya dövründə görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır və qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır. Çünki Azərbaycan səhiyyəsi illər öncəki səhiyyə deyil. İnkişaf edən, yeniləşən respublikamızın səhiyyəsi də bu pandemiya dövründə nəyə qadir olduğunu sübut edir.

**Zərifə BƏŞİRQIZI,**
**“Xalq qəzeti”**